# Prezident İlham ƏLİYEV:

# İqtisadiyyatımız artır, sosial məsələlər öz müsbət həllini tapır





***❒ Müstəqil Azərbaycan dövlətinin əldə etdiyi uğurlar ilbəil artmaqdadır. Bu həqiqəti dostlarımız da, düşmənlərimiz də qeyd-şərtsiz etiraf edirlər. Son 15 ildə dünyada Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə tapmaq çətindir. İqtisadiyyatımız 3,2 dəfə artmış və bu artım indi də dinamik qaydada davam edir. Davos İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatında dünyanın 200-dən çox ölkəsi arasında Azərbaycan 35-ci yeri tutmuşdur. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalara görə isə 3-cü yerə layiq görülmüşdür.***

Yola salmağa hazırlaşdığımız 2018-ci ildə də çox önəmli nailiyyətlər əldə edilmiş, nəhəng infrastruktur layihələr icra olunmuşdur. Nəqliyyat və neft-qaz sahələrində reallaşdırılan beynəlxalq əhəmiyyətli layihələr ölkənin siyasi və iqtisadi uğurlarına öz töhfələrini vermişdir.

Dövlət Statistika Komitəsinin cari ilin on bir ayının nəticələrinə həsr olunmuş hesabatında deyilir ki, yanvar-noyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 72432,1 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 1,3 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır.

Əlavə dəyərin 45,2 faizi sənayedə, 9,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə sahələrində, 15,1 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7378,5 manata bərabər olmuşdur.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən yanvar-noyabr aylarında 44 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır. Sənaye məhsulunun 73,4 faizi mədənçıxarma sektorunda, 21,9 faizi emal sektorunda, 4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 0,2 faiz, əmtəəlik qaz hasilatı isə 4,9 faiz artmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 29,1 dəfə, poliqrafiya məhsullarının istehsalı 2,3 dəfə, tütün məmulatlarının istehsalı 2,2 dəfə, elektrik avadanlıqlarının və mebel istehsalının hər biri üzrə 2,1 dəfə, toxuculuq sənayesi məhsullarının istehsalı 42,4 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 28,3 faiz, tikinti materiallarının istehsalı 28,2 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 16,3 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 13,1 faiz, içkilərin istehsalı 8,3 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,2 faiz artmış, kimya sənayesi məhsullarının istehsalı 1,5 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 9,7 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri isə 10,8 faiz azalmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında dekabrın 1-dək 401,8 milyon manatlıq hazır məhsul olmuşdur.

Ölkədə kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmaq üzrədir. Dekabr ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 99,8 faizi, yaxud 1049,4 min hektarı biçilmiş və həmin sahələrdən 3059,9 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 13,7 faiz çox məhsul götürülmüşdür. Orta hesabla hər hektardan 29,2 sentner məhsul əldə edilmişdir. Bundan əlavə, 31,7 min hektar dən üçün qarğıdalı sahəsindən 226,8 min ton məhsul toplanmış, hər hektardan 71,5 sentner qarğıdalı dəni götürülmüşdür. Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3286,7 min ton olmuşdur.

Dekabr ayının 1-nə kimi sahələrdən 1446,6 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz çox tərəvəz, 889,4 min ton (əvvəlki ilin müvafiq dövrü səviyyəsində) kartof, 401,6 min ton (8,2 faiz az) bostan məhsulları, 998,4 min ton (8,1 faiz çox) meyvə və giləmeyvə, 154,8 min ton (6,2 faiz çox) üzüm, 868,6 ton (12,5 faiz çox) yaşıl çay yarpağı, 284,5 min ton (30,3 faiz az) şəkər çuğunduru, 220,4 min ton (13,3 faiz çox) pambıq, 24,2 min ton (19,3 faiz az) dən üçün günəbaxan, 5,7 min ton (13,3 faiz çox) tütün yığılmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında diri çəkidə ət istehsalı 3 faiz artaraq 463,6 min ton, süd istehsalı 2,8 faiz artaraq 1899 min ton, yumurta istehsalı 1,9 faiz azalaraq 1534,7 milyon ədəd və yun istehsalı 1,2 faiz azalaraq 15,7 min ton olmuşdur. Ümumiyyətlə, ölkədə kənd təsərrüfatı məhsulu istehsalı 4,6 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,7 faiz, bitkiçilik məhsulları istehsalı isə 6,6 faiz artmışdır.

Gələn ilin məhsulu üçün 1057,2 min hektar sahədə şum qaldırılmış, 876,2 min hektara dən üçün taxıl – 577,3 min hektar sahəyə buğda, 298,7 min hektar sahəyə isə arpa səpilmişdir.

Cari ilin on bir ayında əsas kapitala 12899,4 milyon manat məbləğində vəsait yönəldilmişdir. Qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 21,2 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 22,6 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 8820,9 milyon manatı və ya 68,4 faizi məhsul istehsalı obyektlərinin, 3026,8 milyon manatı (23,5 faizi) xidmət sahələri üzrə obyektlərin, 1051,7 milyon manatı (8,1 faizi) isə ümumi sahəsi 1844,3 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8144,9 milyon manatını və ya 63,1 faizini daxili vəsaitlər təşkil etmişdir. Həmin vəsaitlərin 9019,6 milyon manatı və ya 69,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2018-ci ilin yanvar-noyabr aylarında 209,5 milyon ton yük və 1811,6 milyon sərnişin daşınmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,5 faiz, sərnişin daşınması isə 1,4 faiz artmışdır. Yüklərin 65 faizi avtomobil, 25,3 faizi boru kəməri, 6 faizi dəmir yolu, 3,6 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 88,2 faizi avtomobil, 11,6 faizi metro, qalanları isə hava və dəniz nəqliyyatı vasitələri ilə mənzil başına çatdırılmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 1694,4 milyon manatlıq xidmətlərin 72,7 faizi əhali sektoruna aid olmuşdur. On bir ayında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi real ifadəsində 9,2 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Ötən ilin yanvar-noyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 32436,8 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 7944,9 milyon manatlıq ödənişli xidmət göstərilmişdir. Əmtəə dövriyyəsi 2,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 2,8 faiz artmış, ticarət şəbəkəsində 16272,7 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 16164,1 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla 2018-ci ilin on ayında ölkənin xarici ticarət dövriyyəsi 26534,3 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 17281,7 milyon dollarını və ya 65,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 9252,6 milyon dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 8029,1 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

Xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 36,4 faiz, o cümlədən ixrac 38,3 faiz, idxal 33 faiz artmışdır. Real ifadədə isə dövriyyə 1,3 faiz, o cümlədən ixrac 1 faiz, idxal 1,9 faiz artmışdır. On ay ərzində qeyri-neft məhsullarının ixracı 2017-ci ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 10,9 faiz, real ifadədə isə 1,7 faiz artaraq 1351,1 milyon dollar təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,9 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 2,7 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 2,6 faiz artmışdır.

On ayda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artaraq 540 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr aylarında əhalinin gəlirləri nominal ifadədə 9,2 faiz artaraq 47368,8 milyon manata çatmışdır.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən yanvar-noyabr aylarında dövlət büdcəsinə 20144,7 milyon manat vəsait daxil olmuş, büdcədən 19670,1 milyon manat vəsait xərclənmişdir. Büdcənin icrasında 474,6 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, noyabr ayının 1-nə kimi ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 12281,3 milyon manat olmuş, onun 9779,1 milyon manatını uzunmüddətli kreditlər təşkil etmişdir. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 13,8 faizinə bərabər olmuşdur. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği noyabrın 1-nə kimi 8140 milyon manat təşkil etmişdir.

On bir ayda ölkə əhalisinin sayı 69 min 645 nəfər və ya 0,7 faiz artaraq 9 milyon 967 min 730 nəfərə çatmışdır.

***Hazırladı:***
***Ə. BAYRAMOV, "Xalq qəzeti"***